Ədəbiyyat QƏZETİ №21 13 iyun 2025-ci il 

# Məmməd TAHİR - 70



Hörmətli Məmməd müəllim!

Sizi - tanınmış şair, yazıçını 70 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 1955-ci il iyunun 15-də Naxçıvan Muxtar Respublikası Kəngərli (keçmiş Şərur) rayonunun Xok kəndində anadan olmusunuz. 1962-1972-ci illərdə Xok kənd orta məktəbində orta təhsil almısınız. 1972-73-cü illərdə Naxçıvan, 51 nömrəli tikinti idarəsində fəhlə işləmisiniz. 1973-cü ildə Naxçıvan Dövlət Pedaqoji Universitetinin Dil-ədəbiyyat şöbəsinə daxil olmuş, 1977-ci ildə buranı bitirmisiniz.

1977-1982-ci illərdə Saatlı rayon Mollavaizli kənd məktəbində dil-ədəbiyyat müəllimi işləmisiniz.

1985-1989-cu illərdə "Şərq qapısı" qəzetində, 1989-1990-cı illərdə "Azərbaycan" qəzetinin Naxçıvan üzrə xüsusi müxbiri, 1991-99-cu illərdə Naxçıvan televiziyasında redaktor, böyük redaktor, şöbə müdiri vəzifələrində işləmisiniz.

1999-2021-ci illərdə təhsil sahəsində çalışmısınız.

"Düşür" adlı ilk şeiriniz 1972-ci ilin martında Şərur rayonunun "İşıqlı yol" qəzetində çap olunub. 1973-cü il fevral ayında "Mən fəhləyəm" adlı şeiriniz "Şərq qapısı" qəzetində çap olunub. 1973-77-ci illərdə "Şərq qapısı" və Naxçıvan televiziyasında müntəzəm olaraq şeirlərinizlə çıxış etmisiniz. 1977-82-ci illərdə Saatlı rayonunda müəllim işləyə-işləyə ədəbi yaradıcılığınızı "Dönüş" qəzetində davam etdirmisiniz.

1984-cü ildə "Yazıçı" nəşriyyatında çapdan çıxan Naxçıvan yazıçılarının əsərlərindən ibarət olan "Araz" adlı almanaxda sizin də şeirləriniz yer alıb.

Türkiyədə, İranda çıxan ədəbi almanaxlarda da şeirləriniz çap olunub.

İlk kitabınız "Yazıçı" nəşriyyatının tematik planına salınıb, lakin o illərdə sovet quruluşunun dağılmasından sonra nəşriyyat maddi vəsait üzündən fəaliyyətini dayandırdığından, bir çox qələm sahibləri kimi, sizi də kitabınızın taleyi uğursuz olub.

Bu gün siz müntəzəm olaraq dövri mətbuatda, "Ədəbiyyat qəzeti"ndə, "Azərbaycan" jurnalında, "525-ci qəzet"də çıxış edirsiniz.

2016-cı ildə "Rəsul Rza fondu" tərəfindən Xalq şairi Rəsul Rzanın xatirəsinə həsr etdiyiniz "Çinarlar yola baxır" poemanıza görə, "Rəsul Rza mükafatı laureatı" adına layiq görülmüsünüz.

1998-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüsünüz.

"Vətən, məni qınama", "Yurdum - and yerim", "Yaz nağılı", "Yol ver keçim, dünya, səndən", "Den koqda ya vernus" , "Könlüm came qapısı", "Bir azdan günəş doğacaq", "Könül verdiyim dünya" adlı şeir kitablarınız çap olunub. "Səmimiyyətin poeziyası" adlı məqalələr toplunuz sizin uzun illik yaradıcılıq yolunuza həsr olunub.

Hörmətli Məmməd müəllim!

Sizi bir daha 70 illik yubileyiniz münasibətilə təbrik edir, cansağlığı, səmərəli yaradıcılıq arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**